# Qarşılıqlı etimad, ortaq baxış, etibarlı tərəfdaşlıq

## İki dost ölkə arasında bərpaolunan enerji sahəsində əlaqələr güclü iqtisadi potensial hesabına davamlı inkişaf edir

*Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər xüsusi əhəmiyyətə malikdir. Cənab İlham Əliyevin yanvarın 13-də bu ölkəyə işgüzar səfəri iki ölkə arasında yüksələn xətlə inkişaf edən əlaqələrin göstəricisidir. Səfər çərçivəsində Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşündə aparılan müzakirələr qarşılıqlı əməkdaşlıq üçün yeni perspektivlər vəd edir.*

Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin ötən il Azərbaycana rəsmi və COP29 ilə bağlı səfərləri, dövlətimizin başçısı ilə keçirdiyi görüşlər və aparılmış müzakirələr də münasibətlərin hazırkı səviyyəsini ifadə edir. Təsadüfi deyil ki, COP29-un Azərbaycanda keçirilməsi haqqında qərar məhz BƏƏ-də keçirilən COP28-də qəbul olunmuşdu. Bütövlükdə, görüş zamanı dövlət başçıları münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, Azərbaycan ilə BƏƏ arasında dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayıblar. Dövlət başçıları münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, Azərbaycan ilə BƏƏ arasında dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu qeyd ediblər. Siyasi münasibətlərimizin mükəmməl səviyyədə olduğunu deyən Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndiyini, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın bərpaolunan enerji sahəsinə qoyduğu investisiyaların da dostluğumuzun və tərəfdaşlığımızın nümunəsi olduğunu deyib. Bütün bunlar sübut edir ki, Azərbaycanın beynəlxalq platformalarda fəal iştirakı və bu platformalar çərçivəsində öz maraqlarını ifadə etməsi nəticəsində inkişafını dünya görür. Prezident İlham Əliyevin Əbu-Dabi Davamlılıq Həftəsinə dəvət olunması isə bir daha dövlətimizin başçısının və respublikamızın dünyada artan nüfuzundan xəbər verir.

Azərbaycan zəngin enerji ehtiyatlarına, inkişaf etmiş yanacaq və enerji infrastrukturuna, enerji sisteminə malik ölkələrdəndir. Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq, Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olub. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir. Dayanıqlı, təhlükəsiz enerji güclərinin yaradılmasında, "yaşıl gələcəy"in qurulmasına milli səviyyələrdə mühüm töhfələrin verilməsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlıq müstəsna rol oynayır. Azərbaycanda artıq 7 beynəlxalq şirkətlə "yaşıl enerji" tərəfdaşlığına başlanılıb.

Prezidentlərin görüşü həm də münasibətlərimizin yeni mərhələyə yüksəlməsinin bariz nümunəsidir. Ölkələrimiz arasında ticarət və investisiya sahəsində əməkdaşlığın inkişafı üçün bir sıra mexanizmlər tətbiq olunur. Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərində ticarət nümayəndəsi və Dubayda Azərbaycan Ticarət Evi fəaliyyət göstərir. Ölkəmiz Birləşmiş Ərəb Əmirliklərində təşkil edilən investisiya forumlarının fəal iştirakçılarından biridir. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirir. Bu, əlaqələrin daha da genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. İki ölkə arasında münasibətlər bir çox sahədə strateji əhəmiyyət daşıyır. Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın ötən ilin əvvəlində Azərbaycana rəsmi səfərinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev Neftçala, Biləsuvar Günəş elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək Elektrik Stansiyasının təməlinin qoyulmasını dostluq və qardaşlıq münasibətlərimizin nümayişi kimi dəyərləndirib.

Azərbaycan dost ölkə və etibarlı tərəfdaş olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrin dərinləşməsinə xüsusi əhəmiyyət verir, "Masdar" şirkəti tərəfindən tikilən və regionda ən böyük günəş elektrik stansiyası olan Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılışı qardaşlıq əlaqələrimizin növbəti bariz təzahürüdür. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin 4 nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirilib.

2023-cü ildə ilk xarici sərmayə əsaslı və MDB, Xəzər regionunun ən böyük günəş elektrik stansiyası "Masdar" şirkəti ilə istifadəyə verilib. 2027-ci ilədək 230 MVt-lıq bu stansiyadan əlavə "Masdar", "ACWA Power", bp, "China Gezhouba", "Nobel Energy" və "Baltech" tərəfindən 1,6 QVt-dan çox gücdə 8 günəş və külək elektrik stansiyası inşa olunacaq. 2030-cu ilədək daxili istehlak, iqtisadiyyatın dekarbonizasiyası və ixrac məqsədilə quruda və dənizdə 8 QVt-dən çox "yaşıl enerji" layihələri məhz xarici investisiya hesabına reallaşdırılacaq. Bərpaolunan enerji istehsalı sahəsində Azərbaycanın "Masdar" şirkəti ilə əməkdaşlığı özünəməxsus yer tutur. Belə ki, "Masdar" və Azərbaycan Dövlət Neft Şirkəti 4 qiqavatlıq külək və günəş elektirik stansiyalarının yaradılmasına dair razılaşma imzalayıblar. Gələcəkdə əməkdaşlığın genişləndirilməsi nəticəsində istehsal gücü 10 qiqavata qədər artırılması nəzərdə tutulur. Ümumilikdə, ölkəmizin "Masdar" ilə əməkdaşlığı Azərbaycanı "yaşıl enerji"nin çox mühüm ixrac mənbəyinə çevirəcək.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən il iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində "Masdar" şirkətinin ölkəmizdə inşa edəcəyi üç elektrik stansiyasının təməlqoyma mərasimində iştirak edib. Bu elektrik stansiyalarının ümumi qoyuluş gücü 1000 MVt (1 QVt) olacaq. "Masdar" şirkəti Biləsuvarda (445 MVt) və Neftçalada (315 MVt) iki günəş elektrik stansiyası və Abşeron-Qaradağda isə 240 MVt gücündə bir külək elektrik stansiyası inşa edəcək.

Azərbaycan "yaşıl iqtisadiyyat" yolunda irəlilədikcə, əmirliklərlə əməkdaşlığımız qarşılıqlı etimad, ortaq baxış və güclü iqtisadi əlaqələr hesabına davamlı uğurun təmin edilməsi üçün daha da inkişaf edir. Ümumiyyətlə, həm Azərbaycan, həm də Birləşmiş Ərəb Əmirlikləri kifayət qədər dinamik inkişaf edən ölkələrdir. Bu baxımdan hazırkı mərhələdə elə hər iki ölkənin prezidentinin vurğuladığı kimi, ölkələr arasında daha geniş istiqamətli əməkdaşlığın qurulması imkanları mövcuddur. Torpaqlarımız işğaldan azad olunduqdan sonra həmin ərazilərdə bərpaolunan enerji mənbələrinin yaradılması Azərbaycan üçün prioritetlərdən biridir və bu istiqamətdə Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əməkdaşlığın ciddi təsiri olacaq.

Qeyd edək ki, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur və bu texniki potensial 7200 MVt-dən artıq olaraq qiymətləndirilir. Eyni zamanda ilkin araşdırmalara əsasən Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması müəyyən edilmişdir. Bununla yanaşı, Tərtərçay, Həkəri çayı və bu çayların qollarında böyük hidroenerji potensialı mövcuddur. İşğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi əhəmiyyət verilir. Bu hədəfə uyğun olaraq elektrik enerjisinin istehsal güclərinin bərpası çərçivəsində Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20.2 MVt gücündə 4 su elektrik stansiyası, eyni zamanda Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt "Xudafərin", 40 MVt "Qız qalası") olmaqla, iki su elektrik stansiyası da istifadəyə verilmişdir. Laçın və Kəlbəcər ərazisində təxmini olaraq 100 MVt gücündə tikintisi planlaşdırılan külək elektrik stansiyası layihəsinin reallaşdırılması işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılmasına əlavə töhfə olacaq. Bərpaolunan enerji istehsalı sahəsində Azərbaycanın "Masdar" şirkəti ilə əməkdaşlığı özünəməxsus yer tutur. Belə ki, "Masdar" və Azərbaycan Dövlət Neft Şirkəti 4 qiqavatlıq külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma imzalayıblar. Ümumilikdə, ölkəmizin "Masdar" ilə əməkdaşlığı Azərbaycanı "yaşıl enerji"nin çox mühüm ixrac mənbəyinə çevirəcək.

Ərəb dünyasının ən zəngin ölkələrindən biri olan Birləşmiş Ərəb Əmirlikləri informasiya-kommunikasiya texnologiyaları sahəsində və digər beynəlxalq platformalarda ölkəmizə qarşı birmənalı mövqeyi ilə fərqlənir. Diplomatik əlaqələrin, iki ölkə arasında münasibətlərin dostluq zəmininda inkişafı uğurla davam edir. Qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri hər zaman yüksək səviyyəsi, dialoq mühitində inkişaf tempi ilə diqqət çəkib. Münasibətlərimizin çoxşaxəli və dinamik olması, açıq siyasi dialoq ölkələrimiz arasında enerji və iqtisadi sahələrdə də əlaqələrin inkişafına müsbət təsir göstərib. Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın bərpaolunan enerji sahəsinə qoyduğu investisiyalar da dostluğun və tərəfdaşlığın nümunəsidir.

**Mustafa KAMAL,**
**"Respublika".**